

İspanaq yarpaqlarından miokard əzələ toxumasının xassələrinə yaxın olan üzvi maddə əldə edilib.

Dalga tv xəbər verir ki, bu barədə Böyük Britaniyanın Vuster Politexnik İnstitutunun bir qrup alimi araşdırma aparıb.

Alimlər bildirir ki, bitkinin kapillyar toru insanın ürək-damar sistemi kimi fəaliyyət göstərir.

Onlar "bitki" miokard toxumasını əldə etmək üçün ispanaqdan bir sıra maddələri ixtisar edərək neytral sellülozlu kapillyarlar karkasını saxlayıblar. Üzvi məhsulun gövdə hüceyrələri ilə emalı nəticəsində kiçik həcmdə mayeni özündən ötürmək qabiliyyətinə malik əzələ toxuması əldə edilib.

"Biz yarpağın kapilyarlarını qana batmış cisimlərlə zənginləşdirilmiş boyayla doldurduq və onlar dövr etməyə başladılar", - deyə Qlen Qodet bildirdi.

Bu yeni ixtira gələcəkdə süni orqanların yetişdirilməsi prosesində donor materiallarından istifadəni minimuma endirməyə imkan verəcək.

Biokimyaçılar brokkolinin xüsusiyyətlərinin öyrənməyə başlayıblar. Onun ağciyərin müalicəsində rolu araşdırılır.